# 2006 Gələcəyin Durumu

**Son onilliklər ərzində illik Gələcəyin Durumu hesabatlarında əsas qlobal meyllər və lazımi qlobal, regional və milli tədbirlərə əvvəllər görünməyən baxışlar təqdim edilmişdir.**
Mihali Simai, BMT Universitetinin keçmiş sədri və UNU/WIDER direktoru
**Gələcəyi ildə qurmaq istəyən siyasət formalaşdıran liderlər üçün əla alət və mütləq istifadə edilməli vasitədir.**
Maria Coao Rodriqez, Avropa Komissiyasının xüsusi müşaviri
**Gələcəyin Durumu gələcəyi düşünmənin və uzun müddətli siyasət formalaşdırılmasının zəruriliyini bizə göstərir.**
Reyz Tamez, Meksikanın Təhsil Naziri
**Mənim Ford şirkətində ən yaxşı xərclədiyim vəsait Minilliyin Layihəsinə sərf etdiyim puldur.**
Ed Martin, Qlobal Bazar Araşdırmasının keçmiş direktoru, Ford Motor şirkəti
**Mən sizin mühüm layihənizin nəticəsinə böyük əhəmiyyət verirəm. Xahiş edirəm bu faydalı işinizi davam edəsiniz.**
Frits K. Poku, Qananın ABŞ-dakı səfiri

**За последнее десятилетие, годовые отчеты Состояние Будущего предложили беспрецедентное понимание основных глобальных трендов, а также необходимых глобальных, региональных и национальных действий.**
Миали Симай, Экс-глава Университета Объединенных Наций и Директор
**Обязательное руководство в предвидении будущего и прекрасный инструмент для стратегов для планирования будущего.**
Мария Жоао Родригес, Специальный Советник Европейской Комиссии
**Состояние Будущего демонстрирует важность размышлений о будущем и долгосрочного стратегического планирования.**
Рэез Тамез, Министр Образования Мексики
**Будучи в Форде моя самая эффективная затрата была на Проект Тысячелетия.**
Эд Мартин, экс-директор Глобальных Рыночных Исследований
**Я высоко ценю результаты вашего похвального проекта. Продолжайте, пожалуйста, свою полезную работу.**
Фритз К. Поку, Посол Ганы в США

**During the past decade, the annual State of the Future reports have offered unprecedented insights into the main global trends and the necessary global, regional, and national actions.**
Mihaly Simai, Former UNU Chair and UNU/WIDER Director
**A must in foresight, an excellent tool for policymakers wanting to shape the future.**
Maria Joao Rodrigues, Special Advisor to the European Commission
**State of the Future shows us the importance of the future thinking and long-term policymaking.**
Reyes Tamez, Minister of Education, Mexico
**Best money I ever spent at Ford was on the Millennium Project.**
Ed Martin, Former Director, Global Market Research, Ford Motor Company
**I treasure very much the outcome of your laudable Project... Please keep up your good works.**
Fritz K. Poku, Ambassador of Ghana to the United Nations

**Minilliyin Layihəsinin hazırkı Gələcəyin Durumu 2006 İcmalı layihənin Azərbycan Bolməsi tərəfindən azərbyacan və rus dillərinə tərcumə edilmiş və capa hazırlanmışdır.**

**Данное Резюме Состояния Будущего 2006 Проекта Тысячелетия было переведено на азербайджанский и русский языки и подготовлено к печати Азербайджанским Отделением проекта.**

**The current Executive Summary of the 2006 State of the Future of the Millenium Project has been translated into Azerbaijani and Russian and prepared for print by the Azerbaijan Noad of the project.**

**Www.StateOfTheFuture.org**

**10** illiyin nəşri

**Birləşmiş Millətlər Universiteti üçün**
Amerika Şurasının Minilliyin Layihəsi

2006

# Gələcəyin durumu

## *İCMAL*



**State of the Future**
*Executive Summary*

**Состояние Будущего**
*Резюме*

**Cerome K. Qlenn və Teodor C. Qordon**

**Birləşmiş Millətlər Universiteti** üçün

Amerika Şurasının

**Minilliyin Layihəsi**

# 2006 Gələcəyin Durumu

## *İ C M A L*

Cerom K. Qlenn və Teodor C. Qordon

Əvvəlki *Gələcəyin Durumu* hesabatları Ərəb, Çin, İngilis, Fars, Fransız, Koreya və İspan dillərinə tərcümə edilmişdir. Məlumat üçün www.acunu.org internet səhifəsində "Books and Reports" bölməsinə baxın.

Son doqquz illik *Gələcəyin Durumu* hesabatlarının yeddisi *Gələcəyin Sorğusu* tərəfindən gələcəyə dair ilin ən yaxşı kitabları sırasına daxil edilmişdir.

---

© 2006 BMT Universitetini üçün Amerika Şurası
4421 Garrison küçəsi. ŞQ
Vaşınqton, K.R. 200166-4055 ABŞ

Minilliyin Layihəsi müstəsna olaraq BMT Universiteti üçün Amerika Şurasının məsuliyyətidir. Bu layihə BMT Universitetinin Yaponiyanın Tokio şəhərindəki baş qərargahı tərəfindən idarə edilmir və hazırda BMT Universitetinin araşdırma proqramının bir hissəsi kimi və ya proqram tərəfindən maliyyələşdirilmir.

Cerom R. Qlenn və Teodor C. Qordon

## Minilliyin Layihəsi Bölmələrinin Sədrləri

Minilliyin Layihəsi qlobal və yerli perspektivləri öz Bölmələri (“Nodlar”) (insan və institutların qruplaşmları) vasitəsilə əlaqələndirir. Onlar öz regionlarında yaradıcı və bilikli insanları müəyyən edir, sorğuları tərcrümə edir, müsahibələr aparır və layihənin əldə etdiyi məlumatları paylayır. Bölmə Sədrləri aşağıdakılardır:

**Arqentina/Latın Amerikasının digər alt-bölmələri**
Miqel Anxel Getierrez
Latın Amerikasının Qlobalizasiya və Gələcək Mərkəzi
Buenos Ayres, Argentina

Eduardo Balbi
Escenarios y Estrategia-EYE
Buenos Ayres, Argentina

**Avstraliya**
Paul Uayldman
Gələcək Fondu
Brisbeyn, Avstraliya

**Azərbaycan**
Reyhan Hüseynova
Gələcəyin Araşdırmaları Cəmiyyəti
Bakı, Azərbaycan

Əli Abbasov
Rabitə və İnformasiya Texnologiyaları Naziri
Bakı, Azərbaycan

**Braziliya**
Arnoldo Xose de Hoyos və Roza Alegria
San Paolo Katolik Universiteti
San Paolo, Braziliya

**Brüssel Zonası**
Filip Destratte
Destri İnstitutu
Namur, Belçika

**Kanada**
Ruben Nelson
Foresight Canada
Lac Des Arcs, AB, Kanada

Devid Harries
ACOC
Kinqston, ON, Kanada

**Mərkəzi Avropa**
Pavel Novaçek
Çarlz Universiteti
Praqa, Çex Respublikası

İvan Klinek
Proqnozlaşdırma İnstitutu
Bratislava, Slovak Respublikası

**Çin**
Rusonq Uanq
Çin Təbiətşünaslıq Akademiyası
Beyjinq Çin

Zouyinq Cin
Çin sosial Elmlər Akademiyası
Beijinq, Çin

**Misir**
Kamal Zəki Mahmud Şiir
Misir-Ərəb Gələcək Araşdırma Assosiasiyası
Qahirə, Misir

**Fransa**
Safia Rişu
Gələcəyə Baxış Şəbəkəsi
Paris, Fransa

**Finlandiya**
Sirkka Heinonen
VTT Finlandiyanın Texniki Araşdırma Mərkəzi
Espo, Finlandiya

**Almaniya**
Kornelia Daheim
Z-Punkt GmbH
Proqnoz Şirkəti
Essen, Almaniya

**Körfəz zonası**
İsmail Al-Şatti
Rabitə Naziri
Küveyt Hökuməti
Küveyt, Küveyt

**İran**
Mohsen Bahrami
Amir Kabir Texnologiya Universiteti
Tehran, İran

**Hindistan**
Anandhavalli Mahadevan
Madurai Kamarac Universiteti
Madurai, Hindistan

Mohan K. Tikku
Futurist/jurnalist
Yeni Dehli, Hindistan

**İtaliya**
Eleonora Barbieri Massini
Gregoria Universiteti
Rim, İtaliya

**Yaponiya**
Şinji Marsumoto
CSP Korporasiyası
Tokio, Yaponiya

**Meksika**
Konsepsion Olavarrieta
Nodo Mexicano, el Proyecto Del Milenio, AC
Meksiko şəhəri, Meksika

**Rusiya**
Nadejda Gaponenko
Rusiya İqtisadiyyat, Siyasət və Hüquq İnstitutu
Moskva, Rusiya

Renad Perelet
Sistem Analizi İnstitutu
Rusiya Elmlər Akademiyası
Moskva, Rusiya

**Silikon düzü**
Con J. Qottsman
Clarity Group
Palo Alto CA, ABŞ

**Cənubi Afrika**
Geci Karuri
Humanitar Elmlər Respublika Şurası
Pretoria, Cənubi Afrika

Bob Day və JP Landman
Futurist konsultantlar
Gautenq, Cənubi Afrika

**Cənubi Koreya**
Yonqsook Park
Korea 2050
Seul, Koreya

**Türkiyə**
Alper Alsan
Bütün Futuristlər Assosiasiyası
İstanbul, Türkiyə

**Birləşmiş Krallıq (İngiltərə)**
Paul Kreyk
Sənət, İstehsalat və Kommersiyanın Təşviqi üzrə Kral Cəmiyyəti
London, İngiltərə

**Venesuela**
Xose Kordeiro
Sociedad Mundial del Futuro Venezuela
Karakas, Venesuela

**Eksperimental Kiber-bölmə**
Frank Katanzaro
Arcturus Araşdırma və Dizany Qrupu
Maui, Havay adaları

# ÖN SÖZ

Gələcəyi öyrənmənin əsas məqsədi həm arzu olunan, həm də mümkün gələcəyi sistematik şəkildə araşdırmaq, yaratmaq və yoxlamaq, beləliklə də qəbul edilən qərarları yaxşılaşdırmaqdır. Qərar qəbul edilməsinə qlobalizasiya prosesi təsir edir, bu da o deməkdir ki, ayrı-ayrı şəxslər, qruplar və təşkilatlar tərəfindən hərtərəfli qərarların qəbul edilməsini təmin etmək üçün gələcək qlobal miqyasda araşdırılmalıdır.

Zəmanəmizin probeləmləri daha çox keçid, təşkilatlararası və trans-intizamlı xarakter daşıdığı üçün futuristlər, alimlər, akademiklər, biznes planlayıcıları və siyasəti formalaşdıranların birləşdiyi qlobal araşdırma mərkəzi olan Minilliyin Layihəsi yaradılmışdır. Burada çalışanlar müxtəlif beynəlxalq təşkilatları, hökumətləri, korporasiyaları, QHT-ləri və universitetləri təmsil edir.

Gələcəyin araşdırılması ilə bir çox akademik araşdırmalar arasında mürəkkəb münasibət və əlaqələr olmuşdur. Elmi araşdırmalar genişləndikcə, öz araşdırma sahəsini darlaşdırır. Gələcəyin araşdırılması isə, əksinə, inkişaf etdikcə gələcək imkanları nəzərə almaq üçün öz araşdırma sahəsini genişləndirir. Bu bir elm deyildir; gələcəyin araşdırılmasının nəticəsi istifadə edilən metodlardan və araşdıranların biliklərindən asılıdır. Bu araşdırmanın metodları kəmiyyət (Fəsil 2-dəki *Gələcəyin Durumu* İndeksi kimi) və ya keyfiyyət (Fəsil 3-dəki Qlobal Enerji Ssenarilərini yaradan Delfi araşdırmaları kimi) baxımlı ola bilər. Bu araşdırma hazırki vəziyyəti daha yaxşı başa düşmək və məntiqi görüş dairələri (Fəsil 1-dəki Qlobal Problemlər kimi) genişləndirmək üçün çərçivənin əldə edilməsinə yardım edir.

*2006-cı il üzrə Gələcəyin Durumu* hesabatında qlobal dəyişikliklər barədə əlavə məlumat verilir. Bu onuncu   və *Gələcəyin Durumu* hesabatıdır. Bu hesabatda təxminən 2100 yaradıcı və düşüncəli insanın 10 illik dövr üzrə məcmu araşdırmaları və fərziyyələri əks etdirilir. Keçən ilin araşdırmalarında təxminən 180 insan iştirak etmişdir. İştirakçıların institusional və coğrafi demoqrafiyası Əlavədə, iştirakçıların tam siyahısı isə CD-dəki Əlavə A-da göstərilmişdir.

İllik *Gələcəyin Durumu* hesabatı elə bir vasitədir ki, insanlar buradan özlərinin ehtiyaclarına uyğunlaşdırılmaq üçün məlumat və ideyalar əldə edə bilər. Bu sənədə verilən strateji mənzərədən istifadə edərək dövlət və özəl sektorun siyasəti formalaşdıran liderləri öz strateji qərarlarını və qlobal problemlər barədə anlayışlarını təkmilləşdirə bilər. Biznes liderləri özlərinin planlaşdırma fəaliyyətini həyata keçirərkən bu araşdırmadan faydalana bilər. Bu məlumat universitet professorları, futuristləri üçün tədris və araşdırma prosesində faydalı ola bilər. Ötən hesabatın bölmələrindən universitet və məktəb tədris mətnlərində istifadə edilmişdir.

*2006-cı il üzrə Gələcəyin Durumu*  hesabatı iki hissədən ibarətdir: Minilliyin Layihəsinin bu il və ötən bir neçə il ərzində apardığı araşdırmaların tam təfsilatını əks etdirən kompakt disk; və 2005-2006 üzrə araşdırmanın bir sıra işlənmiş, icmal mətnini əks etdirən bu çap sənədi. Çap sənədindəki hər bir fəsil kompakt diskdəki hər bir fəslin icmalı kimi qəbul edilməlidir. Məsələn, çap sənədində 15 Qlobal Problemə həsr edilən Fəsil 1-də hər bir Problem üzrə 2 səhifəlik mətn var. Lakin kompakt diskdə bu problemlərə 950 səhifə həsr edilmişdir.

Bundan əlavə kompakt diskdən istifadə edərək hər hansı bir spesifik iş zamanı konkret maddələrin axtarılması üçün də istifadə edilə bilər. 15 Problemin hər birinə dair regional baxışlar da Fəsil 1-də təqdim edilmişdir. Məsələn, 15 Problemin hər biri üzrə bütün Afrika bölmələri köçürmə yolu ilə bir sənəddə birləşdirilə bilər (və digər fəsillərdə Afrikaya dair məlumat da buraya əlavə edilə bilər)- bu zaman Afrika üzrə Qlobal Problem və Çətinliklərə dair hesabat əldə edilmiş olur.

Hesabatın CD variantında 4000 yaxın səhifə var və istinad sənədi kimi istifadə edilmək üçün yaradılmışdır. İstifadəçilər onları maraqlandıran sözlər vasitəsilə müvafiq bölmələri bu sənəddə axtara və çap edə bilərlər. Məsələn, CD-də hər bir Problemin geniş izahı, problemlərin alternativ qavrayışı və bu izaha əlavələr, regional baxışlar, son zamanlar nəşr edilmiş ədəbiyyatdan müvafiq məlumat və əvvəlki Qlobal Nəzarət Qrupundan bir sıra tədbirlər göstərilmişdir. Məlumatın bir hissəsi qərar qəbul edənlərlə əvvəlki müsahibələrdən götürülmüşdür. Problemlərin təsvirində həmçinin son illərdə irəli sürülmüş fikirlər, əlavə tədbirlər və bu tədbirlər barədə rəylər və problemin həllində bu tədbirlərin uğurlu və ya uğursuzluğunun ölçülməsi üçün təklif edilən göstəricilər var.

Qlobal Problemlər Fəslindəki məlumatlar bir-birinə uyğun olmaya bilər, çünki onlar bir müəllif tərəfindən yazılmış hesabat deyil, yüzlərlə iştirakçının çeşidli rəylərini təmsil edən məlumatlardır. Bu sənədi hazırlayarkən bir müxtəlif rəylər axtarmış və öyrənmişik. Buna görə də qaldırılan bəzi məsələlər və onların həlli üçün təklif edilən tədbirlər ziddiyyətli görünə bilər. Bundan əlavə, məlumatların bəzisində səbəb-nəticə əlaqəsinin olmadığı görünə bilər, bəziləri isə siyasi şablonlar kimi səslənə bilər, lakin bunlar iştirakçıların rəyidir və siyasətin formalaşdırılması prosesində faydalı ola bilər. Bütün bunlara baxmayaraq, bu sənəd digər mənbələrə nisbətən daha geniş və əhatəli şəkildə qlobal vəziyyətin mənzərəsini yaradır və proqnozlar təqdim edir.

Minilliyin Layihəsinin Bölmələri qlobal və yerli perspektivləri əlaqələndirən şəxs və təşkilatların qruplaşmalarıdır. Onlar iştirakçıları müəyyən edir, müsahibələr aparır, sorğuları tərcümə edir və paylayır, araşdırma və konfranslar keçirir. MƏhz onların yardımı ilə bu hesabatdakı dünya mənzərəsi təsəvvür edilir və Minilliyin Layihəsinin bütün işləri həyata keçirilir.

Minilliyin Layihəsi öz araşdırmaları, nəşrləri, konfransları və Qovşaqları vasitəsilə kollektiv zehni gücləndirmək üçün beynəlxalq miqyasda azad sorğu və rəy bildirilməsi ruhunu gücləndirir. Bütün bunlarda məqsəd insan inkişafının sosial, texniki və ekoloji davamlılığını gücləndirməkdir. Kitabın hər hansı hissəsinə dair rəylər jglenn@igc.org internet ünvanına göndərilə bilər və bu növbəti Gələcəyin Durumu hesabatında nəzərə alınacaqdır.

Cerom C.Qlenn
Müdir
Minilliyin Layihəsi

Teodor C. Qordon
Baş Mütəxəssis
Minilliyin Layihəsi

Elizabet Floresku
Araşdırmalst üzrə Müdiri
Minilliyin Layihəsi

# 15 QLOBAL ÇAĞIRIŞ

15 Qlobal Çağırış bəşəriyyətin qlobal və yerli perspektivlərinin qiymətləndirilməsi üçün struktur təmin edir. Çağırışlar biri-birilə əlaqəlidir: birində yaxşılaşma digərlərinin tənzimlənməsini asanlaşdırır; birində pisləşmə digərlərin tənzimlənməsini çətinləşdirir. Birinin digərindən vacib olmasının mübahisələndirilməsi, insanın əsəb sisteminin onun tənəffüs sistemindən daha vacib olmasının mübahisələndirilməsinə bənzəyir.





# İCMAL

Sivil dünyanın daha gözəl və mükəmməl gələcək qurmaq üçün imkanları geniş, lakin son dərəcə səmərəsizdir. Səmərəliliyi artırmaq üçün isə bütövlükdə bəşəriyyətin və ayrı-ayrılıqda onun hissələrinin vəziyyətinə mümkün qədər obyektiv baxmaq lazımdır. Məsələn, quş qripi mutasiya edə və 25 milyon insanın ölümünə səbəb ola bilərdi, neftin qiymətinin qalxması bir çox ölkələrin iqtisadiyyatına zərbə vura bilərdi, dünyanın hər bir yerində getdikcə artan təbii fəlakətlər insanların kütləvi səfalətinə səbəb olur və milyonlarla insan müxtəlif münaqişələrin qurbanın olur və həyatını itirir. Lakin, bütün bunlara baxmayaraq dünyanın getdikcə daha sakit, çiçəklənən və sağlam olması faktdır.

*Birinci İnsan Təhlükəsizliyi Hesabatında* göstərilmişdi ki, 90-cu illərin əvvəllərindən indiyədək silahlı münaqişələrin sayı 40%-dən çox, 1988-2001 illər arasında genosidlərin və siyasi qırğınların sayı 80%, 1981-2001-ci illər arasında beynəlxalq böhranlar 70%, 1990-2003-cü illər arasında iri beynəlxalq silah alverinin dollar dəyəri 33%, 1992-2003-cü illər arasında qaçqınların sayı 45% azalmışdır. BVF-nun hesablamalarına görə dünya iqtisadiyyatı 2005-də 4.8%, əhali 1.15%, illik adambaşına gəlir 3.65% artmışdır.

BMT-nin Minilliyin İnkişaf Məqsədlərində hələ də əsas diqqət beynəlxalq əməkdaşlığa verilir və bu Məqsədlər siyasətin formalaşdırılmasının qlobal uzun-müddətli perspektivlərinə daha həssas yanaşmanı təşviq edir. Bəziləri tərəfindən tənqid edilməsinə baxmayaraq, bu məqsədlər getdikcə daha çox qlobal proqres hədəfi və beynəlxalq səmərəliliyin ölçüsünə çevrilir. Dünyanın 62 trilyon dollarlıq iqtisadiyyatının yarısından çox hissəsi inkişaf edən ölkələrin payına düşür. Milyarddan çox insan (dünya üzrə 16%) internet şəbəkəsinə qoşulub. Rəqəmsal boşluq azalmağa başlamışdır, nəticədə bilik iqtisadiyyatını demokratikləşdirir və yaranan kollektiv kompüter/insan biliyi və idarəetmə sistemləri üçün özünü idarə edən mexanizmlər təmin edir. Bütün dünyada əlaqəli olmayan hər bir şeyi əlaqələndirmək həyəcanı başlamışdır və bəşəriyyətin fəaliyyət göstərdiyi və çiçəkləndiyi sistemlər arasında əlaqələr tamamlanarsa nəhəng sərvətlər əldə edilə bilər.

Lakin bütün bunlara baxmayaraq terrorizmlə bağlı vəziyyət pisləşir və əgər dünyanın sistemləri ədalətsiz fəaliyyət göstərərsə, bu belə davam edəcəkdir. Dünyada hələ də 27000 nüvə silahı var. Hər bir qitədə yeraltı su ehtiyatları azalır, dünya əhalisinin 40% suyu iki və ya daha artıq ölkə tərəfindən idarə edilən mənbələrdən alır, kənd təsərrüfatı üçün istifadə edilən torpaqlar şoranlaşır, bir çox sistemlər urbanizasiyanın artırdığı su tələbatının öhdəsindən gələ bilmir. Bütün Afrika əhalisinin yarısından çoxu günə 1 dollar gəlirlə yaşayır və Afrikada həyat müddəti QİÇS səbəbindən azalır. Gələcəkdə molekulyar və əczaçılıq istehsalatı, genomik və digər proqram təminatı, və mütəşəkkil cinayətkarların nüvə materialları ayrı-ayrı insanlara kütləvi qırğın silahlarını hazırlamaq və istifadə etmək imkanı verə bilər. Hökumətlərdə 11 trilyon dollar rüşvət verilir, mütəşəkkil cinayət gəlirləri 2 trilyondan artıqdır, terrorizm genişlənir və insanların beynini əxlaqsız və qeyri-etik davranışlarla dolduran bəsit əyləncələr daha effektiv və etik rəhbərliyin olmasını tələb edir. Məlumatın və məlumat daşıyıcılarının yayılması nəticəsində düzgün qərarların qəbul edilməsi üçün tələb olunan qlobal vəziyyət barədə mühüm məlumatı, məcazi mənada desək, adi səs-küydən ayırmaq çətinləşir.

İnsanların istehlakı təbiətin ehtiyatları yenidən yaratmaq və ya bizim "ekoloji izlərimizi" qəbul etmək imkanlarından 23% çoxdur. Ekoloji meyllər aydın göstərir ki, ya insanlar və cəmiyyət dəyişməlidir, ya da təbiət bizim yerimizə cəmiyyət dəyişəcəkdir. Bəşəriyyətin iqtisadi artım və ekologiyanın mühafizəsi arasında seçim etməli olduğunu düşünmək son dərəcə köhnəlmiş və cahil fikirdir. Hazırda karbon qazının səviyyəsi son 650,000 il ərzində ən yüksək səviyyəyə çatıb, keçən bir neçə onillik ərzində Yer kürəsinin səthinin temperaturu son 400 il ərzində müqayisə edilə bilən dövrdə olduğundan daha yüksəkdir, son səkkiz ilin altısı tarixdə ən isti il olub, buzlaqların əriməsindən yaranan izafi şirin su nəticəsində Qolfstrimin Avropanı isitməsi effekti 30% azalıb, əriyən tundra metan qazını buraxır- bu qaz iqlim dəyişiklikləri baxımından CO2-dan 22 dəfə güclüdür.

Dünyanın 80%-ni təmsil edən 53 ölkədə gəlir fərqləri genişlənir. 2.5 milyard insan (dünya əhalisinin 40%) gün 2 dollar və ya az gəlirlə yaşayır. Ticarət əsaslı iqtisadi inkişaf nisbətən kasıb ölkələrin iflasına səbəb ola bilər, çünki bu zaman kasıb ölkələr Çin və Hindistanın inkişaf edən yüksək texnologiyalı, aşağı əmək haqqı olan sənaye potensialı ilə rəqabət apara bilməyəcək. Məhsul ixracından asılı olan ölkələrdə ehtiyatlar qurtararsa və ya idxalçılar həmin məhsulların əvəzedicilərini qəbul edərsə, bu ölkələrdə böhran baş verə bilər.

Beləliklə, biznesin olduğu kimi davam etməsi kütləvi ekoloji və iqtisadi böhranlardan başlayaraq, kütləvi miqrasiya və ya ədalətsizlik və bərabərsizliyə qarşı artan hiddətə qədər çeşidli problemlərə gətirəcək. Ən ekstremal vəziyyətdə isə hətta bir insan tərəfindən kütləvi qırğın silahları istifadə edilə bilər. Bütün dünyada indi bizim ümumi gələcəyimiz üçün düzgün olanı etmək cəhdləri həyata keçirilir, lakin effektiv rəhbərlik, təfsilatlı fəaliyyət planları yoxdur. İnsanların üzləşdiyi təhlükələr və insanların vəziyyətini yaxşılaşdırmaq imkanları demək olar ki, eyni templə artır.

Minilliyin Layihəsi tərəfindən insanların iştirakı ilə qlobal gələcək qurulmasına dair 10 illik araşdırma nəticəsində aydın oldu ki, qlobal problemlərini həll etmək üçün bəşəriyyətin lazımi resursları var, lakin bu problemlər üzərində nə qədər ağlın, xeyirxahlığın və biliyin cəmləşməsi məlum deyil.

Dünyanın ən zəngin iki insanının, Bill Qeyts və Uorren Baffetin dünyanın ən kasıb insanlarına yardım etmək üçün 60 milyard vəsait toplaması ürəkləndirici haldır. Ən iri ixtiraçılar, Segway-i icad edən Din Karmen, Banqladeşin ən böyük mobil telefon şirkəti olan GrameenPhone-un təsisçisi İqbal Qadir kimi insanlar dünyada ən kasıb 1.5 milyard insanın su-enerji problemini həll etmək üçün çalışır. İnsan genomu layihəsini bitirən Qreq Venter indi bu biliklərindən istifadə edərək aşağı xərcli, ekoloji cəhətdən təhlükəsiz olan elektrik enerjisi yaratmağa çalışır. Keçmiş prezident Bill Klintonun fondu bəzi QİÇS xəstələrinin müalicə xərclərini günə 140 dollara qədər azaltmağa nail olub. Güclü və varlı insanların qlobal problemlərin həlli üçün bu növ ayrı-ayrı cəhdləri həvəsləndirici bir haldır.

Dünyanın 6.53 milyard əhalisinin 2050-ci ilə qədər 9 milyarda qədər artması və 2100-cü ilə yaxın təxminən 5.5 milyarda qədər azalması gözlənilir. Bu o deməkdir ki, növbəti əsr ərzində insan ömrünün uzunluğuna təsir edə biləcək mühüm elmi və texnoloji icadların edilməsi gözlənilən bir ehtimaldır. Hətta bu gün belə alimlər gövdə hüceyrələrindən istifadə edərək insan bədənini müalicə etməyə və qorumağa çalışırlar, bu isə nəzəri olaraq insan ömrünü qeyri-müəyyən müddətə uzada bilər. Yaşlanma və pensiyaya çıxma, həmçinin səhiyyə sistemlərinin təşkili kimi konsepsiyalara yenidən baxılmalı və dəyişdirilməlidir. Rusiya və Yaponiyanın əhalisi doğum sayının düşməsi səbəbindən azalır. Digər ölkələrin əhalisi də bu səbəbdən azalacaq. Növbəti 50 il ərzində dünya əhalisinin artımı demək olar ki, tamamilə inkişaf edən ölkələrin iri şəhərləri hesabına baş verəcək.BMT-nin baş katibi Kofi Annan qeyd edib "dünyada demokratiyanın yayılması zəmanəmizin yeni mərhələyə keçməsinin işarəsidir". Seçki demokratiyalarının sayının artmasına baxmayaraq, mətbuat azadlığı azalır. Freedom House qeyd edir ki dünya əhalisinin yalnız 17%-nin müstəqil mətbuata çıxışı var. E-hökumət dünya üzrə yayılır və lazımi texnologiyalara çıxışı olan insanların sayı artdıqca e-hökumət daha effektiv olacaq.

Gələcəyimizə təsir edən və nisbətən az proqnoz edilə bilən faktor infeksion xəstəliklərlə bağlı dəyişən vəziyyətdir. Quş qripi 50-dən çox ölkədə quşlar arasında yayılıb. 2006-cı ilin ortasında ÜST doqquz ölkədə 228 insanın quş

qripinə yoluxduğunu və bunlardan 130-nun həyatını itirdiyini bildirdi. H5N1 virusunda genetik mutasiya bu virusun insandan insana keçməsinə yol verərsə, 25 milyon insan ölə bilər, aviaşirkətlər, turizm və digər iqtisadi sektorlara saysız-hesabsız ziyanlar dəyə bilər. QİÇS-in genetik ardıcıllığını hazırlamaq üçün 15 il, SARS virusunun ardıcıllığını hazırlamaq üçün isə bir aydan az vaxt tələb olundu. Lakin buna baxmayaraq, sürətlə vaksinlərin hazırlanması və paylanması kifayət etməyə bilər. Alternativ yanaşma kimi, insan immun sisteminə xəstəlikdən asılı olmayaraq tez bir zamanda və geniş miqdarda qüvvət verə bilən dərmanları hazırlamaq və dünyanın müxtəlif yerlərində saxlamaq olar, lazım olduqda gələcək infeksiyaları təcrid etmək və onların yayılmasının qarşısını almaq üçün bu dərmanlar tez bir zamanda yerli miqyasda paylana bilər. Hazırda QİÇŞ dünyada insan ölümü səbəbləri arasında dördüncü yeri tutur: 3.16 milyonu 2005-ci ildə olmaqla, QİÇS-dən 25 milyon insan ölmüşdür. Hazırda QİÇS-lə 65 milyon insan yaşayır, bu rəqəmin 4.6 milyonu 2005-ci ilə təsadüf edir və bu rəqəm bir il ərzində ən böyük artım göstəricisidir. Eyni zamanda tibbi məktəblərə az adam qəbul olunduğu və tez pensiyaya çıxdığı üçün dünyada tibb işçilərinin çatışmazlığı vardır.

BMT Əhali Fondunun 2005 üzrə Dünya Əhalisinin Vəziyyətinə dair hesabatında göstərilir "gender əsaslı zorakılıq ən geniş yayılan və ən çox dözülən insan haqları pozulması növüdür". ÜST qeyd edir ki, qadınlara qarşı zorakılıq qadın ölümünün xəstəlik və aclıqdan sonrakı ən böyük səbəbidir. Bundan əlavə, ÜST qeyd edir ki, hər beş qadından biri həyatı ərzində zorlanmanın qurbanı olmuş və ya zorlanmağa cəhd edilmişdir, ölkədən asılı olaraq 10-69% qadınlar həyatları ərzində cinsi əlaqədə olduğu partnyoru tərəfindən fiziki zorakılığa məruz qalmışdır. BMT-nin Qadınlar üçün İnkişaf Fondu və Amnesti İnternational hesablamışdır ki, hər üç qadından biri ömrü ərzində zorakılığın bir növü ilə üzləşir. Hər il insan alverinin qurbanı olan 600,000-800,000 insanın 80% qadındır, bu "tarixdə ən böyük qul alveri" və mütəşəkkil cinayətin ən sürətlə inkişaf edən sahəsidir. BVF-nun əvvəlki hesablamaları çirkli pullarının yuyulmasının dünya iqtisadiyyatında 2-5% tutmasını göstərir, alternativ hesablamalar isə bu rəqəmin 10%-ə artmasını bildirir. Beləliklə, ümumilikdə yuyulan çirkli pulların məbləği 1.2-6.2 trilyon arasında ola bilər. Müqayisə üçün, bütün dünya ölkələrinin hərbi büdcələri birlikdə ildə 1 trilyondan bir az çoxdur. Hazırda 14 milyon QİÇS xəstələrinin sayı 2010-cu ilə qədər 25 milyona çata və cinayət qruplaşmaları üçün nəhəng qüvvə ola bilər.

Çernobl hadisəsindən 20 il keçməsinə baxmayaraq atom enerjisi zavodunda hələ də radioaktivlik vardır və Ukraynanın prezidenti bunun qarşısının daha yaxşı alınması üçün 1 milyard dollar tələb olunduğunu bildirmişdir. 1.6 milyard insanın elektrik-enerjisinə çıxışı yoxdur, 2.4 milyard insan yemək bişirmək və istilik üçün ənənəvi enerji xammalından istifadə edir, halbuki hər il dünyada nəqliyyat tıxaclarında milyardlarla qallon neft sərf edilir. Neft qiymətlərinin qalxmasın nəhayət ki, alternativ enerji və karbon təcridinə daha çox investisiyaların qoyulmasına gətirib, lakin bütün bunlar iqlim dəyişikliklərininqarşısını almaq üçün kifayət deyil. Bu iqlim dəyişiklikləri təbiətdən və ekoloji hərəkətlərdən ciddi mənfi reaksiyaların baş verməsinə səbəb ola bilər.

İnanılmaz işləri görən proqram təminatını yaratmaq üçün kod sətirləri necə yazılmışdısa, daha da inanılmaz işləri görə biləcək (məsələn, fotosintezdən oksigen yerinə hidrogen yanacağının alınması) yeni həyat yaratmaq üçün genetik kod da yazıla bilər. 3-d prototipin yaradılmasına oxşar üsulla matrisa printerinin yardımı ilə yaşayan hüceyrələrdən istifadə edərək qatlarla süni orqanlar yaradıla bilər. Gələcəkdə nanotexnologiya, biotexnologiya, informasiya texnologiyaları və koqnitologiya (təfəkkür elmi) birləşdirilərsə və vəhdət kimi fəaliyyət göstərərsə qida, enerji, su təchizatı artırıla, dünyanın hər yerində insanlar və məlumatlar əlaqələndirilə və bəşəriyyətin vəziyyəti radikal şəkildə yaxşılaşdırıla bilər. Nəticədə kollektiv düşüncə artar, dəyərlər və effektivlik yaranar və xərclər isə azalar. Bütün bu dəyişiklikləri sürətləndirən amillər özləri də sürətlənir, nəticədə gələcək 25 illə müqayisədə ötən 25 il yavaş templi görünür. Qlobal çağırışları başa düşmək və həll etmək üçün daha səmərəli üsullar nə qədər tez zamanda istifadə edilərsə, bir o qədər yaxşı nəticələr əldə edilər. Vaxt bizim xeyrimizə işləmir.

BMT Minilliyin İnkişaf Məqsədlərinə səkkizinə nail olmaq və 15 Qlobal Çağırışı həll etmək üçün dünyada hökumət, korporativ, və universitet elmi və tibbi resursları həmin

problemlər üzərində cəmləşdirmək üçün proses olmalıdır. Bizim institutlararası idarəetmə və media vasitəsilə daha ciddi ictimai tədris/məlumatlandırma mexanizmlərinə ehtiyacımız var. ABŞ-ın keçmiş Vitse Prezidenti Al Qorun Narahat Edən Həqiqət filmi buna bir nümunədir. Təsəvvür edin ki, bütün qlobal çağırışlər üzrə belə filmlər hazırlana bilər. Əgər bəşəriyyətin çiçəklənməsi üçün çox çalışan insanlara bu barədə narahat olmayan insanlar da yardım etsəydi, təsəvvür edin dünya necə bir yerə çevrilərdi.

Bütün insanlar üçün səhiyyə və təhlükəsizliyə nail olmağa çalışmaq gülünc hesab edilirdi. Tək başına hər hansı bir insanın bir gün kütləvi qırğın silahı yarada və istifadə edə bilməyəcəyini, və ya sərhədlərarası səyahət mövcud olduğu və bioçeşidlilik azaldığı bir vaxtda bizim şəhərlərdə daha çox insan və heyvanlar cəmləşdirdiyimiz səbəbindən ciddi pandemiya problemi olmayacağını düşünmək bu gün eyni dərəcədə gülüncdür. “Bir insanın rifahı hər kəsin rifahıdır” kimi idealist şüar terrorizmlə mübarizə aparmaq, aeroportları açıq saxlamaq və insanlar üçün təhlükə yaradan dağıdıcı kütləvi miqrasiya və digər potensial təhlükələrin qarşısını almaq üçün praqmatik uzun müddətli yanaşma ola bilər. İdealizmə gülmək uzaqgörməzlik və ehtiyatsızlıqdır, lakin pessimizm elementləri olmadan idealizm yanlış istiqamətə gətirə bilər. Bizə bəşəriyyətin ən pis və ən yaxşı gələcəyini obyektiv şəkildə görə bilən, uğurlu strategiya yarada və həyata keçirə bilən praktik idealistlər lazımdır.

## Gələcəyin Durumu İndeksi

İnsanlar həmişə gələcəyin pis və ya yaxşıya doğru dəyişməsini, bəşəriyyətin harada itirib harada qazandığını və gələcək imkanları yaxşılaşdırmaq üçün resursları harada cəmləşdirmək lazım olduğunu bilməyə can atıblar. Qlobal miqyasda bunu etmək imkansız görünürdü. Dünya Bankı bunu iqtisadiyyat üçün, ÜST səhiyyə üçün, Beynəlxalq Energetika Agentliyi enerji üçün edir, lakin ümumilikdə bəşəriyyətin gələcəyini görmək üçün bütün bunlar necə vəhdət şəklinə salına bilər? Bir yanaşma Gələcəyin Durumu İndeksidir. Bu indeks ümumilikdə gələcəyə 10 illik baxışın ölçüsüdür. Bu indeks tarixdə bəlkə də ən böyük olan cari qlobal gələcək prosesinin yaratdığı qlobal çətinliklərlə bağlı əsas dəyişkənlər və proqnozlardan hazırlanır.

Keçən 20 il üzrə dünyanın əsas göstəricilərini qiymətləndirmək və növbəti 10 il üzrə onları proqnozlaşdırmaq vasitəsilə biz bəşəriyyətin gələcəyi, harada qazandığımız, harada isə itirdiyimiz barədə “müvəffəqiyyət cədvəli” əldə etmiş oluruq. (Bax:cədvəl 1)

Bundan əlavə, ölkələr üçün SOFİ-lər (State of Future İndex-Gələcəyin Durumu İndeksləri) hazırlanmışdır, onlar digər sektorlar (məsələn, enerji) və ya ayrı-ayrı təşkilatlar üçün də hazırlana bilər. Fəsil 2-də SOFİ konsepsiyasının formalaşması barədə danışılır və onun daha da inkişaf etdirilməsi üçün araşdırmaların aparılması təklif edilir. Qlobal SOFİ gələcəyin daha da yaxşılaşdığını, lakin bunun son 20 il ərzində olduğu kimi sürətlə baş verməyəcəyini göstərir.

Cədvəl 1. SOFİ Dəyişkənlərinin Artması və Azalması Dünyanın Gələcək Vəziyyəti Barədə Məlumat Cədvəli Verir

| Qazandığımız sahələr: | İtirdiyimiz sahələr: |
|---|---|
| • Adambaşına ÜDM | • Atmosferə karbon dioksidi |
| • Qidanın daha çox olması | • İşsizlik |
| • Həyat müddəti | • Meşə torpaqları |
| • Yetkin yaşına çatan əhalinin təhsili | • Yoxsul əhalinin sayı |
| • Körpə ölümü | • QİÇS ölümlərinin sayı |
| • Təmiz suya çıxış | • İnkişaf edən ölkələrin borcları |
| • Səhiyyə xidmətlərinə çıxış | • Terrorist hücumları |
| • Məktəblərə qəbul | |

## Qlobal Enerji Ssenariləri 2020

Yüksək neft qiymətlərinin daha da artması, iqlim dəyişikliklərinə dair proqnozlar və qlobal neft istehsalının öz yüksək nöqtəsinə çatması və daha sonra sərt şəkildə azalmasına dair fərziyyələr bu gün enerjini ən mühüm məsələyə çevirmişdir. Fəsil 3-də dörd qlobal enerji ssenarisi müzakirə edilir. ***Biznes Həmişəki Kimi*** o deməkdir ki, qlobal dəyişikliklərin dinamikasında heç bir təəccüblü hal və ya enerji mənbələri və istehlakı meyllərində mühüm dəyişikliklər baş vermir, baş verənlər isə artıq davam edən dinamik dəyişikliklər və meyllərin nəticəsi olduğu üçün gözlənilməz deyildir. ***Ekoloji Mənfi Reaksiya*** o deməkdir ki, beynəlxalq ekoloji hərəkətlər daha mütəşəkkil olur; bəzi qruplar hüquqi tədbirləri və yeni qaydaları irəli sürür və müəyyən fəaliyyətlərə görə məhkəməyə şikayət edir, bu vaxtda digər qruplar isə daha çox zorakılıq törədir və qazıntı halında olan enerji sənayelərinə hücum edir. ***Yüksək Texnologiyalı İqtisadiyyat*** o deməkdir ki, texnologiya sahəsində yeniliklər hazırki proqnozlardan daha artıq sürətlə inkişaf edir və onun enerji təchizatı qarışığı və istehlak meyllərinə göstərdiyi təsir 1990-cu illərdə internetin dünyaya göstərdiyi təsirin miqyası qədər geniş olur. ***Siyasi Çaxnaşma/Qarışıqlıq*** o deməkdir ki, münaqişələr və müharibələrin sayı artır, bir neçə ölkə iflasa uğrayır, nəticədə miqrasiya və dünyada siyasi gərginlik artır. Qlobal enerji ssenarilərinin və əlaqəli araşdırmaların qısa biblioqrafiyası, həmçinin iki mərhələli Delfi-nin nəticələri vasitəsilə ssenariləri yaratmaq üçün məlumat, rəqəmlər, göstəricilər və fərziyyələr əldə edilmişdir-bunların hamısı kompakt diskdə "Qlobal Ssenarilər" adlanan 3-cü Fəsildə vardır.

Beynəlxalq Gələcəklər modelləri əlavə kəmiyyət göstəriciləri üçün istifadə edilmişdir və dörd ssenari arasında bir neçə müqayisələrin aparılmasına imkan vermişdir.

Cədvəl 1: Enerji Ehtiyacı: (milyard barrel NE)
Dörd Qlobal Enerji Ssenarisinin Müqayisəsi 2020




Cədvəl 2: Adambaşına ÜDM:
Dörd Qlobal Enerji Ssenarisinin Müqayisəsi 2020






## Ekoloji Təhlükəsizlik

Getdikcə artan təbii fəlakətlərin törətdiyi dağıntılar, quş qripinin yaratdığı təhlükə və bəşəriyyətin təbiətin verə bildiyindən daha çox ehtiyatlar istifadə etməsi başa düşüldüyü üçün ekoloji təhlükəsizlik dünya əhalisini bir çoxu üçün qlobal gündəliyin ən mühüm məsələlərindən birinə çevrilib. Hətta BMT-nin hesabatlarından birində təklif edilmişdi ki, BMT-nin Təhlükəsizlik Şurası ətraf mühitin mühafizəsini prioritet sahə etsin. Hətta Çinin Xalq Azadlıq Ordusu belə indi öz tikinti və təlim planlarını, öz hərbi texnikasının köçürülməsi və silah alqısı, təmiri və istifadəsi barədə məlumatı ekoloji təhlükəsizlik baxımından təsdiq edilmək üçün yerli orqanlara verməlidir. Çin prezidentinin qəbul etdiyi yeni qaydalarda bu yeni tələblərin pozulmasına görə cəzalar və qiymətləndirmə prosedurları spesifik şəkildə təsvir edilmişdir. Dünya üzrə 500-dən artıq çoxtərəfli ekoloji razılaşmaların bağlanması nəticəsində beynəlxalq ekoloji idarəetmədə daha çox ardıcıllıq və uyğunluğa riayət edilməsi üçün bir sıra tədbirlər görülür.

Ekoloji təhlükəsizlik ətraf mühitin həyatı dəstəkləmək imkanı və davamlığıdır, onun üç alt-elementi var: hərbi fəaliyyətlərin ətraf mühitə vurduğu ziyanın qarşısının alınması və ya bərpası; ekoloji səbəblərdən yaranan münaqişələrin qarşısının alınması və ya aradan qaldırılması; və ətraf mühitin ümumi mənəvi dəyəri səbəbindən onun mühafizəsi. Son il ərzində ekoloji təhlükəsizliyə dair 250-dən çox maddə/problem, 2002-ci ilin avqust ayında Minilliyin Layihəsi bu mövzuda aylıq hesabatlar dərc etməyə başlayandan sonra isə 700 maddə/problem müəyyən edilmişdir, bunlar barədə məlumat Fəsil 4-də verilmişdir. Maddələrin tam mətni və onların mənbəyi kompakt diskdə "Ekoloji Təhlükəsizliklə Bağlı Yaranan Problemlər" adlı Fəsil 9.1-də təqdim edilmişdir, yenilənən aylıq hesabatlar Minilliyin Layihəsinin internet səhifəsində (www.acunu.org - "Yeniliklər" bölməsində "Beynəlxalq Ekoloji Təhlükəsizlik Məsələləri" mövzusunu seçin) əldə edilə bilər.



## Onuncu Yubileyə dair Düşüncələr

Bu Minilliyin Layihəsinin illik *Gələcəyin Durumu* hesabatının onuncusudur. 10 illik qiymətləndirmənin həyata keçirilməsinə baxmayaraq, bu sənədin Fəsil 5-də Layihənin əməkdaşları və Planlaşdırma Komitəsi Layihənin və onun illik hesabatlarının mümkün təsirlərinə dair bəzi rəylərini bildirmişdir, bundan əlavə burada son 10 il ərzində formalaşan əsas nəticələr və yeni ideyalar təqdim edilmişdir. Fəslin yekununda növbəti 10 ilə dair bəzi fikirlər verilmişdir. İcmalın son bölməsində əvvəlki araşdırmadan bir-biri ilə əlaqəli, lakin fərqli və özünəməxsus nəticələr göstərilmişdir.

Urbanizasiyanın dinamikası insanların vəziyyətində mühüm inkişaflarla əlaqəli olduğu üçün əvvəllər problem hesab edilən urbanizasiya indi yoxsulluq, xəstəlik, cahillik və aclıq ilə mübarizənin bir hissəsidir.

İqtisadi artım və texnoloji inkişafın qarşılıqlı əlaqəli olması nəticəsində bu gün 3-4 milyon insanın nisbətən yaxşı sağlamlıq və yaşayış vəziyyəti vardır, lakin əgər sənaye texnologiyaları ilə yanaşı bizim maliyyə, iqtisadi, ekoloji və sosial davranışımız düzəlməzsə, uzun-müddətli gələcəyin təmin edilməsi çətindir.

Dünyada bir çox insan 15 il ərzində internet şəbəkəsinə qoşula və kiberməkanı bəşəriyyətin əvvəl görünməyən vasitəsinə çevirə bilər. Bilik iqtisadiyyatında istehsal vasitələrinin bu növ yeni paylaşması siyasət, iqtisadiyyat və maliyyə sahələrində köhnəlmiş iyerarxiya nəzarətlərini aradan qaldırır. Bu özünü idarə edən mexanizmə çevrilir və insanlığın öz gələcəyini icad edə və dəyişə bilmək qabiliyyətini mühüm dərəcədə artıra bilər. Mobil telefonlar, video və internetin cəmiyyətə inteqrasiyası artdıqca, qiymətlər aşağı düşəcək, qlobalizasiya sürətlənəcək və insanların kütləvi şəkildə tez bir zamanda qruplaşması və ayrılması, müxtəlif tədbirləri koordinasiya etməsi və səhm bazarlarına dair məsləhətlərdən başlayaraq, tamamilə yeni və başqalarına ötürülən, sirayət edici fikirlərə *(meme epidemics)* qədər müxtəlif növ məlumatla bölüşməsi baş verəcək.

Dünyanı hamı üçün yaxşı bir yerə çevirmək məqsədilə varlılar və kasıblar arasında qlobal partnyorluğun yaradılması 11 sentyabr hadisələrinə qədər çox idealistik şüar idi. İndi ayrı-ayrı şəxslərin bir gün kütləvi qırğın silahlarına

çıxışı olması imkanları artdıqca, bu yanaşma ən praqmatik istiqamət ola bilər. İnsanların kütləvi qırğın törətməsinin qarşısını almaq üçün biz təhsil, əqli sağlamlıq və təhlükəsizlik sistemlərini demokratik və effektiv yolla əlaqələndirmək üçün vasitələri axtarmalıyıq.

Bir çox problemlərin bir sıra həlli yolları vardır, lakin kənar məlumat o qədər çoxdur ki, həqiqətən əhəmiyyətli olan problemi müəyyən etmək və diqqət yönəltmək çətindir. Sağlam demokratiyada əhəmiyyətli məlumata ehtiyac olduğu üçün və demokratiya getdikcə qlobal xarakter aldığı üçün cəmiyyətin bu meyli saxlaması məqsədilə əhəmiyyətli, problemlə birbaşa əlaqəli qlobal məlumata ehtiyacı olacaq.

Bizim dövrün nəhəng paradoksu odur ki, texnologiya və iqtisadi artımdan bəhrələnən insanların sayı artdıqca, kasıb və xəstə insanların sayı da artır və əhalinin eyni faizi son 30 il ərzində təhsil əldə edə bilməmişdir. Bu problemi həll etmək üçün dünya liderləri BMT təşkilatları, Dünya Bankı, BVF, ÜTT, çoxmillətli korporasiyalar və qlobalizasiyanın digər iri iştirakçıları arasında ümumi nöqtələr və fəaliyyətlər axtarır.

Texnologiya bir sıra sektorlarda sürətlə inkişaf etdiyi üçün onun insanın nəzarətindən kənarda qala biləcək miqyaslara böyüməsi ehtimalı indi ciddi qəbul edilməlidir.

Milli qərar qəbul edən liderlər bu sahədə nəzəri və praktik təlim keçməmişdir və mürəkkəb qərar qəbul etmə proqram təminatının onlara necə yardım edə biləcəyindən çox azı xəbərdardır. Qərar qəbul edən liderlər üçün etika və qərar qəbul etmə sahəsində formal təlimlər keçirilməsi qlobal qərarların keyfiyyətinin yüksəlməsinə yardım edə bilər. Siyasəti formalaşdıran liderlərin qərar qəbul etmək sahəsində təlimlərə ehtiyac duyması ilə yanaşı prioritetlərin (yerli, milli və beynəlxalq) müəyyən edilməsi prosesləri də təkmilləşdirilməlidir. Bizə məlumdur ki, ümumilikdə dünya son dərəcə mürəkkəbdir və ən ciddi problemlər qlobal xarakter daşıyır, lakin biz tez bir zamanda vəziyyəti idarə etməyə başlamaq üçün internet əsaslı idarəetmə alətləri və konsepsiyalarının necə hazırlanmalı və tətbiq edilməli olduğunu bilmirik.

Özəl sektorun fəaliyyətinin az miqyasda olduğu ölkələrdə hökumətin rolu əhəmiyyətlidir, belə ki, qərbin sənaye ölkələrində qəbul edilmiş, özəl sektorun idarəetmə funksiyasını qəbul edən siyasətlər nisbətən kasıb regionlarda tətbiq edilə bilməz.

Bir ölkənin fəaliyyətləri bir neçə ölkənin təhlükəsizliyinə zərər yetirirsə, həmin ölkələr təhlükə yaradan ölkənin fəaliyyətlərinə hansı mərhələdə müdaxilə edə bilər? Milli suverenliyin miqyası ekoloji təhlükəsizlik, terrorizm, iqlim dəyişiklikləri, Beynəlxalq Cinayət Məhkəməsi və gələcək S&T risklərinin idarə edilməsinin təhlili zamanı mühüm elementdir.

Bir çox qlobal problemlərin həllində zəruri strategiyalardan biri təhsillə bağlı olduğu üçün ən qlobal təhsil üçün ən effektiv tədris materialları, proqramları və paylanma üçün mətbuat müəyyən edilməli, həmçinin tədrisi sürətləndirmək üçün institusional dəyişikliklər araşdırılmalıdır.

Qlobalizasiyanın potensial mədəni təsirləri bir çoxları tərəfindən tənqid edilir, lakin buna baxmayaraq qlobal problemlərin həllində mədəni dəyişikliklərin əhəmiyyəti danılmazdır. Həqiqi demokratiyanın yaradılması üçün mədəni dəyişikliklər edilməlidir, qadınlara qarşı zorakılığın azaldılması üçün mədəniyyət sahəsində dəyişikliklər tələb edilir, həmçinin etnik zorakılığa son qoymaq üçün mədəni dəyişikliklər edilməlidir. İnternet, qlobal ticarət, beynəlxalq ticarət sazişləri və beynəlxalq autsorsinq kimi qlobalizasiya alətlərinin yardımı ilə mədəniyyətlər yeni şərtlərə uyğunlaşdırılmalı, insanların şəraitinin yaxşılaşdırılmasına yardım etməli, lakin eyni zamanda bəşəriyyətdə öz müstəsna, nadir rolunu qoruyub saxlamalıdır. BMT-nin Baş Katibi Kofi Annan qeyd etmişdir "qadınların tam bərabərliyi sadəcə statistik məqsədlərin yerinə yetirilməsi deyil, mədəniyyət də dəyişməlidir."

*Gələcəyin Durumu* hesabatda verildiyi kimi Minilliyin Layihəsinin fəaliyyətinin onuncu ilində bu nəticələrin başa düşülməsi qərar qəbul edən liderlərə və tərbiyəçilərə yardım edə bilər ki, ümidsizlik, kor-koranə inam, cahillik və laqeydlik kimi münasibətlərlə, davranışlarla mübarizə aparsınlar, çünki məhz belə davranışlar çox zaman bəşəriyyətin gələcəyini yaxşılaşdırmaq üçün edilən səylərin qarşısını alır.